

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 206 (21.107)

29 oktyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Ulu öndər Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə Türk dünyasını əhatə edib

*"Ulu öndər Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə Türk dünyasını əhatə edib".*

Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən "Heydər Əliyev lektoriyası"nın 62-ci məşğələsində səsləndirilib.

Lektoriyada çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətində Türk dünyasına xüsusi əhəmiyyət verdiyini qeyd edib.

İ.Hacıyev bildirib ki, ulu öndərin Türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliyi ilə də böyük tarixi əhəmiyyət daşıyır.

Sonra AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində Türk dünyası məsələləri" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, ümummilli lider türk birliyinin möhkəmləndirilməsində, inkişaf etməsində Türkiyə Cümhuriyyətinin rolunu həmişə yüksək qiymətləndirib, cümhuriyyətin qurucusu Mustafa Kamal Atatürkün fəaliyyətini dönə-dönə dəyərləndirib, onu XX əsrin bəşəriyyətə yetirdiyi böyük dühalardan sayıb.



"Ümummilli lider Heydər Əliyevin Türk dünyasının birliyi kimi mühüm məsələdə Atatürkə müraciət etməsi təsadüfi deyildi. Çünki bu məsələlər onu daim düşündürmüşdü", – deyən Əbülfəz Quliyev əlavə edib ki, ulu öndər Bakıda Atatürk Araşdırma Mərkəzinin açılışında deyib: *"Biz Azərbaycanda türkdilli dövlətlərin, Türkiyənin, Azərbaycan-Türkiyə münasibətlərinin tarixinə böyük əhəmiyyət veririk. Xüsusi olaraq biz dahi Atatürkün irsinin elmi şəkildə tədqiqində maraqlıyıq. Təbii ki, bu sahədə Türkiyədə böyük işlər görülüb. Mən hesab edirəm ki, Atatürk tərəfindən yaradılan və yeni nəslin ixtiyarına buraxılan zəngin irs yüz il belə tədqiq olunsa da, onu elmdə, kitablarda, digər məlumat mənbələrində tam şəkildə şərh etmək qeyri-mümkündür".*

Vurğulanıb ki, çoxsaylı türk xalqlarının tarixinin öyrənilməsində, ədəbi və mədəni əlaqələrinin bərpa edilməsində müstəqil türk dövlətləri başçılarının zirvə toplantıları mühüm yer tutur. Türk dövlətləri başçılarının 1994-cü ildə İstanbulda keçirilən zirvə toplantısında qəbul edilmiş "İstanbul Bəyannaməsi"nin imzalanma mərasimində ulu öndər türk xalqlarının yaxınlaşmasının zəruriliyini qeyd edərək deyib: *"Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da birbirimizdən ayırmayıb. İndi isə xalqlarımız öz dövlət müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".*

Lektoriyada ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində Türk dünyasının yeri barədə ətraflı söhbət açılıb.

## Əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi, iş icazələrinin verilməsi məsələləri müzakirə olunub



**Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində Azərbaycan Respublikasında əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi, iş icazələrinin verilməsi ilə bağlı müraciətlər üzrə yol verilən nöqsanların müzakirəsinə həsr olunmuş tədbir keçirilib.**

Tədbiri xidmətin rəis müavini, kiçik miqrasiya xidməti müşaviri Elnur Məmmədov açaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək fəaliyyətinə dair məhdudiyyətləri, onların Azərbaycan Respublikasında işə cəlb olunması barədə danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inspektoru Samir Sadiqov çıxış edərək bildirib ki, 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxs onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşına iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan, məşğulluq xidməti orqanları tərəfindən işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyacların yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasından ibarətdir. Qeyd olunub ki, hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, işə cəlb etmək istədikləri hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxs üçün iş icazəsi almalıdırlar.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inspektoru Sadiq Qasımov əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatla bağlı elektron müraciətlər üzrə yol verilən nöqsanlardan danışıb. Qeyd olunub ki, elektron xidmətlərdən, dövlət tərəfindən vətəndaşlara və təşkilatlara göstərilən xidmətlərin səviyyəsini artırmaq üçün elektron vasitələrdən istifadə edilməsi vacibdir. Elektron hökumət dövlət təşkilatları ilə vətəndaşlar, dövlət təşkilatları ilə özəl təşkilatlar arasında, həmçinin dövlət təşkilatlarının özləri arasında rahat, şəffaf və sərfəli şəkildə qarşılıqlı əlaqəni təmin edir. Naxçıvan Muxtar Respublikasında bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin də elektron xidmət siyahısı təsdiq olunub. Təsdiq olunmuş bəndlər üzrə inzibati reqlamentlər hazırlanaraq xidmətin ***www.miqrasiya.nakhchivan.az*** internet saytında yerləşdirilib. Gələcəkdə vahid elektron informasiya sisteminə yanaşı, xidmət daxilində elektron sənəd dövriyyəsi sisteminin də istifadəyə verilməsi nəzərdə tutulur. Bu sistem daxil olan, göndərilən və daxili sənədlərin elektron formada hazırlanmasına, bu sənədlərin təyin olunan iş axarları ilə elektron formada dövriyyəsinə, icrasının və icrasına nəzarətin təmin edilməsinə xidmət edir və sənədlərin təhlükəsiz saxlanılmasına, lazım olduqda asan şəkildə əldə olunmasına imkan yaradır. Vurğulanıb ki, bütün bunlarla bərabər, xidmətin ***miqrasiya@nakhchivan.az*** elektron poçtuna daxil olan müraciətlərin bəzilərində zəruri texniki tələblərin yerinə yetirilməməsi səbəbindən həmin müraciətlərin qəbulunda və icra prosesində gecikmələr olur.

Sonra Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələri ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin işə cəlb olunması zamanı yol verilən nöqsanlar müzakirə edilib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov yekun vurub.

## Əmək yarmarkasında 11 nəfərə göndəriş verilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Ordubad Rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 28-də rayonda növbəti əmək yarmarkası keçirilib. Yarmarkaya 20 dövlət və özəl müəssisədən 222 boş iş yeri çıxarılıb.

Ordubad Rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov çıxış edərək bildirib ki, əhalinin səmərəli məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqıödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. İndi muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Rayonlarda fəaliyyət göstərən məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Ordubad Rayon İcra Hakimiyyətinin şöbə müdiri Etibar İsmayılov rayonda əhalinin məşğulluğunun artırılması istiqamətində görülən işlərdən danışıb.

İşaxtaran vətəndaş Aysel Məmmədli yarmarkanın təşkilində əməyi olanlara minnətdarlığını bildirib.

Yarmarkada 11 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

## Kənd təsərrüfatının kreditləşdirilməsi bankların kredit siyasətində önəmli yer tutur

***Muxtar respublikada fəaliyyət göstərən bank və digər kredit təşkilatları tərəfindən iqtisadiyyatın kreditləşdirilməsi vəziyyəti diqqəti xüsusən cəlb edir. Belə ki, cari ilin yanvar-sentyabr aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə bankların iqtisadiyyatı kreditləşdirməsi 25,4 faiz artaraq 41 milyon 637 min manata çatıb ki, bu da eyni dövr ərzində muxtar respublikada istehsal olunmuş Ümumi Daxili Məhsulun 2,5 faizini təşkil edir. Ümumiyyətlə, 1 oktyabr 2014-cü il tarixə muxtar respublikada cəmi kredit qoyuluşunun həcmi 98 milyon 92 min manat olub, ötən ilin müvafiq dövründə isə bu göstərici 81 milyon 464 min manat təşkil edib.***

Kreditlərin ötən illə müqayisədə artımı ilə bərabər, verilmiş kreditlərin ölkə üzrə ən aşağı faiz dərəcəsi də məhz muxtar respublikamızda müşahidə olunub.

İqtisadiyyatın real sektoruna cəlb olunan kreditlərin 2 milyon 258 min manatı sənaye, 6 milyon 520 min manatı tikinti, 3 milyon 629 min manatı kommersiya, 16 milyon 3 min manatı isə daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri və digər kommunal, sosial və istehlak kreditlərinin payına düşür. Kreditləşmənin intensiv həyata keçirildiyi sahələrdən biri də muxtar respublika iqtisadiyyatının əsası sayılan kənd təsərrüfatıdır. Kənd təsərrüfatının kreditləşdirilməsi ötən ilin müvafiq dövründə 9 milyon 771 min manat təşkil edib, cari ilin yanvar-sentyabr ayları ərzində isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 35,2 faiz artaraq 13 milyon 212 min manata çatıb. Bu göstəricinin artması təsadüfi deyil. Bu gün muxtar respublikamızda əhalini zəruri qida məhsulları və kənd təsərrüfatı malları ilə təmin etmək üçün güclü potensial mövcuddur. Bu potensialın dəyərləndirilməsi məqsədilə kənd təsərrüfatı ilə məşğul olan fermerlərin, bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların stimullaşdırılması vacib məsələdir. Bu baxımdan muxtar respublikada fəaliyyət göstərən bank və digər kredit təşkilatları tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə fermerlərə, sahibkarlara verilən aşağı faizli kreditlər böyük əhəmiyyətə malikdir.

Kənd təsərrüfatının kreditləşməsində bitkiçilik məhsullarının, o cümlədən taxılçılığın, bostan-tərəvəz bitkilərinin yetişdirilməsi, istixana təsərrüfatının inkişafı xüsusi yer tutur. Müvafiq olaraq, bu sahələrə 1 milyon 335 min manat, 1 milyon 421 min manat, 535 min manat kredit verilib.

Heyvandarlığın inkişafına yönəldilmiş kreditlərin həcmi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən çox artaraq 9 milyon 225 min manat təşkil edib. Arıçılığın inkişafı da diqqətdən kənarda qalmayıb. Bu məqsədlə cəlb edilmiş kreditlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən çox artaraq 440 min manata çatıb.

Cəlb olunan kreditlərin həcminin artmasına səbəb olan amillərdən biri də məhz banklar tərəfindən verilən aşağı faizli kreditlərdir. Belə ki, 2014-cü ilin yanvar ayından etibarən "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti kənd təsərrüfatına verilən kreditlərə tətbiq etdiyi faiz dərəcələrini 15 faizədək endirib ki, bu da ölkə üzrə eyniadlı sahədə tətbiq olunan ən aşağı faiz dərəcəsidir.

Banklar tərəfindən muxtar respublikada aqrar sektorun maliyyələşdirilməsi kənd təsərrüfatı məhsullarının istehsalının artımına da təsir göstərib. 2014-cü ilin yanvar-sentyabr aylarında muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun ümumi həcmi 719 milyon 129 min manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi isə 270 milyon 668 min manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 1,3 və 4,7 faiz çoxdur.

Əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, bu növ məhsulların idxaldan asılılığını azaltmaqla ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə muxtar respublikada fəaliyyət göstərən bank sektoru bundan sonra da öz maliyyə vəsaitlərini səfərbər edəcəkdir.

**Elçin ƏLİYEV**

*Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi*

# 29 oktyabr Türkiyə Respublikasının Cümhuriyyət bayramıdır

***29** oktyabr qardaş Türkiyənin tarixində xüsusi əhəmiyyət kəsb edən bayramlardan biridir. 91 il bundan əvvəl – 1923-cü ildə tarix səhnəsinə qədəm qoymuş Türkiyə Respublikası Mustafa Kamal Atatürkün şah əsəri, çoxəsrlik türk dövlətçiliyinin yeni dövrdə davamıdır.*



Türkiyə bugünkü cümhuriyyətə nail olmaq üçün uzun və şərəfli tarixi yol keçmişdir. XX əsrin əvvəllərində dünyanın bir çox ölkələri, o cümlədən Türkiyə ətrafında cərəyan edən mürəkkəb siyasi və qanlı hadisələr 1914-cü ildə Birinci Dünya müharibəsinin və xalqlar arasında milli azadlıq hərəkatının başlanmasına gətirib çıxardı. Süqut ərəfəsində olan zəifləmiş Osmanlı imperiyası özünü ayaq üstə saxlamaq məqsədilə sonuncu dəfə gücünü səfərbər edərək bu müharibəyə qoşuldu. Lakin Antanta dövlətləri tərəfindən məğlubiyyətə uğradıldı. 1918-ci ildə qalib dövlətlərlə Türkiyə arasında Mudros barışıq müqaviləsi bağlandı. Əslində isə bu saziş Türkiyəni parçalamaq və onun tarix səhnəsindəki roluna son qoymaq niyyəti güdürdü.

Müqavilənin imzalandığı dövrdə Türkiyənin nəzarətindəki ərazilərin bir qismi Antanta tərəfindən tutulmuşdu. İngilis orduları neft yataqlarının zəngin olduğu Mosul vilayətini, Antepi, Maraşı, Urfanı, Əskişəhəri işğal etmişdilər. Onlar Anadolu-Bağdad dəmir yoluna, Qara dəniz və Aralıq dənizi limanlarına da nəzarət edirdilər. Fransızlar isə Adana vilayətini ələ keçirmişdilər. İtalyanlar Antalya və Quşadasına daxil olmuş, Konyanı, İspartanı, Bodrumu və Anadolunun digər cənub-qərb rayonlarını işğal etmişdilər. Artıq 1919-cu ilin əvvəllərində Türkiyədə Antanta dövlətlərinin əsgər sayı 100 min nəfərdən çox idi.

Türkiyəni parçalamaq siyasətinin kökündə dayanan amillərdən biri də burada erməni dövləti yaratmaq niyyəti ilə bağlı idi. Ermənilərin fəallığı ilə daxili düşmənlər, milli azlıqlar təxribatçı fəaliyyət göstərir, Türkiyənin məhvinə çalışırdılar. Atatürk ermənilərin türk xalqı üçün çox ciddi təhlükə olduğunu bildirərək həmin dövrü belə xarakterizə etmişdir: ***“Ölkənin hər yerində xristian etnik azlıqları gizli və açıq şəkildə niyyətlərini həyata keçirməyə, dövlətin mümkün olduğu qədər tez bir zamanda çökməsinə çalışdılar. Sonradan əldə edilən etibarlı məlumatlardan və sənədlərdən tam aydın olmuşdur ki, İstanbul Yunan Patriarxlığında yaradılan “Mavri Mira heyəti” bölgələrdə partizan dəstələri yaratmaq və onları idarə etmək, nümayiş təşkil etmək və təbliğati iş aparmaqla məşğuldur. Erməni patriarxı Zaven əfəndi də “Mavri Mira heyəti” ilə birlikdə fəaliyyət göstərir. Trabzon, Samsun və bütün Qara dəniz sahillərində təşkilatlanan və İstanbuldakı mərkəzə tabe olan Pontus cəmiyyəti heç bir maneə ilə qarşılaşmadan asanlıqla çalışırdı”.***

Həm daxildəki düşmənlərin ölkəni parçalamaq cəhdləri, həm də 1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr sazişi Türkiyənin dövlətçiliyini və gələcəyini təhlükə altında qoymuşdu. Türk xalqı ədalətsizliklə barışmayaraq 1919-cu ildə ölkədə milli azadlıq mübarizəsinə başladı. Mübarizəyə Birinci Dünya müharibəsi döyüşlərində bir sıra hərbi əməliyyatlarda uğur qazanmış, Osmanlı ordusunun ən istedadlı generallarından olan Mustafa Kamal rəhbərlik edirdi. Onun rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Bu zəfər türk xalqının 1919-cu ildə başladığı istiqlal mücadiləsinin zirvəsi, minlərlə şəhid qanı ilə suvarılan Vətən torpağının düşmən tapdağından xilası idi. Qələbənin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermiş, türk xalqına qardaşlıq köməyini əsirgəməmişdir.

1923-cü il oktyabrın 29-da azad, müstəqil, müasir Türkiyə Respublikasının yaradılması bütün dünyaya bəyan edildi. Atatürkün qurduğu Türkiyə Respublikası onun yolu ilə gedərək bu gün bölgədə və dünyada inkişaf edən dövlətə çevrilib. Güclü iqtisadiyyatı, qüdrətli ordusu, demokratiya və hüquqa bağlılığı ilə Türkiyə Respublikası beynəlxalq aləmdə öz yeri olan ölkələrdən biridir.

Böyük dövlətlərin onlar üçün yaratdıqları çətinliklərə baxmayaraq, Türkiyə və Azərbaycan xalqları daim bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçib, hər iki dövlətin qurucusunun – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır.

***Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimizdə bir-birimizə inam və etibarımız, qarşılıqlı dəstəyimiz böyük məmnunluq doğurur.***

Azərbaycanla Türkiyənin strateji tərəfdaşlığı hər iki xalqın eyni kökə mənsub olmasından qaynaqlanır. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanla Türkiyə arasında əlaqələrə daim üstünlük vermiş, bu əlaqələri “bir millətin iki dövləti” səviyyəsinə qaldıraraq demişdir: ***“Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimizdə bir-birimizə inam və etibarımız, qarşılıqlı dəstəyimiz böyük məmnunluq doğurur”.***

Əsası ulu öndərimiz tərəfindən qoyulan Türkiyə ilə dostluq və qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycanla Türkiyə arasında həyata keçirilən enerji layihələri ölkələrimizin beynəlxalq nüfuzunun artmasına və dünyada söz sahibi olmasına şərait yaratmışdır. Belə ki, uğurla həyata keçirilən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Bakı-Tbilisi-Qars dəmir yolu hər iki ölkənin siyasi, iqtisadi və strareji əməkdaşlığının daha bir bariz nümunəsinə çevrilmişdir. İrimiqyaslı müştərək layihələr artıq öz səmərəsini verir. Türk və azərbaycanlı iş adamlarının hər iki ölkəyə sərmayə yatırması ölkələrimizin inkişafına böyük töhfədir.

İki qardaş ölkə arasındakı münasibətlərin inkişafında qarşılıqlı səfərlər mühüm əhəmiyyət kəsb edir. Həmin səfərlər zamanı yüzlərlə dövlətlərarası və hökumətlərarası sənəd imzalanmışdır ki, bu da bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi üçün hüquqi baza rolunu oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasına 2010-cu ilin 7-9 iyul tarixlərində həyata keçirdiyi işgüzar səfəri ölkələrimiz arasındakı əlaqələrin dinamikası baxımından xeyli məhsuldar olmuş, “Təbii qazın satışı və nəqlinə dair Bəyannamə” və “Təbii qazın satışı və nəqlinə dair Anlaşma Memorandumu” imzalanmışdır. Dövlət başçısının qardaş ölkəyə 2010-cu il 15-16 sentyabr tarixlərində həyata keçirdiyi səfəri isə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, səfər zamanı “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksəksəviyyəli Strateji Tərəfdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə” imzalanmışdır. Hörmətli Prezidentimizin bu fikirləri şuranın əhəmiyyətini çox gözəl ifadə edir: ***“Yüksəksəviyyəli Strateji Tərəfdaşlıq Şurasının yaradılması, sadəcə, adi bir müqavilə, saziş deyildir. Bu, bizə imkan verəcək ki, gələcəkdə bütün sahələrdə fəaliyyətimizi birlikdə quraq, əlaqələndirilmiş şəkildə aparaq və bütün sahələrdə daha da böyük nəticələrə çataq. Bu saziş bütün sahələri əhatə edir – siyasi əlaqələri, hansı ki, bu gün ən yüksək zirvədədir. Ticarət əlaqələri, qarşılıqlı sərmayə qoyuluşu, enerji, neft-qaz sahələrindəki əməkdaşlıq, nəqliyyat, dəmir yolu layihələri, mədəniyyət, humanitar sahələr – yəni elə bir sahə yoxdur ki, bu sazişdən kənarda qalsın. Bu bizə imkan verəcək ki, Türkiyə ilə Azərbaycanın əlaqələri bundan sonra da uğurla, sürətlə və daha da mütəşəkkil qaydada irəliyə getsin və xalqlarımız daha da birləşsin, daha da sıx əməkdaşlıq etsin”.***

Azərbaycan və Türkiyə prezidentlərinin seçkilərdən sonra ilk rəsmi səfərlərini qardaş ölkəyə etməsi dövlətlərimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına, əlaqələrin daha da genişləndirilməsinə stimul verir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu il Prezident seçildikdən sonra ilk rəsmi səfərini Azərbaycana etmişdir. Səfər zamanı Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi və inkişafında xüsusi xidmətlərinə görə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan “Heydər Əliyev” ordeni ilə təltif edilmişdir.

***Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir... Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik.***

Azərbaycan-Türkiyə əlaqələrinin dinamikası Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapır. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı əlaqələrin əsası ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmışdır. Bu səfərin nəticələri muxtar respublika üçün uğurlu olmuş, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzünə qarşı çıxaraq beynəlxalq Qars müqaviləsinə əsasən, Türkiyə Respublikasının Naxçıvanın muxtariyyətinin qarantı olması barədə bəyanat vermişdir. Bundan başqa, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İqdır-Naxçıvan yüksəkgərginlikli elektrik xətti çəkilmişdir.

Mustafa Kamal Atatürkün “Türk qapısı” adlandırdığı Naxçıvana Türkiyə Cümhuriyyəti daim diqqətlə yanaşıb. 2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında iştirak üçün Naxçıvana gəlməsi qardaş ölkənin, bütövlükdə, Türk dünyasının Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Səfər çərçivəsində Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti, Baş naziri, xarici işlər naziri və Türk Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşlər keçirmişdir. Bu görüşlərin nəticəsi olaraq, 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır. 2010-cu il iyunun 24-də Türk Hava Yollarının “Anadolu JET” şirkəti ilə Naxçıvan Beynəlxalq Hava Limanı arasında bağlanmış müqaviləyə əsasən, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycanla Türkiyənin əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***“İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdirlər ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soykök, milli və ortaq dəyərlər birləşdirir. Ona görə də iqtisadi və siyasi maraqlarımız daha möhkəm və uzunömürlüdür, eyni zamanda xalqlarımızın mənafeyinə xidmət edir. Qarşılıqlı əlaqələrimiz isə ilbəil genişlənir. Hər iki ölkənin dövlət başçılarının səyləri ilə indiki dövrdə bu əlaqələr daha da artır”.***

Hazırda Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsində Türkiyə Respublikası ilk yerlərdən birini tutur. Muxtar respublikamızla Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə, o cümlədən iqtisadi, mədəni, humanitar, təhsil və ordu quruculuğu sahələrində qarşılıqlı əlaqələr mövcuddur və bu əlaqələr dinamik şəkildə inkişaf edir.

*Azərbaycanla Türkiyə arasındakı münasibətlər öz kökünü xalqlarımızın qədim tarixindən götürür. Azərbaycan Prezidenti cənab İlham Əliyev Türkiyə-Azərbaycan qardaşlığını və strateji tərəfdaşlığını yüksək qiymətləndirərək demişdir:* ***“Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir... Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar... Ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlıq daha da dərinləşəcəkdir. Türkiyə-Azərbaycan iki qardaş xalq, iki qardaş ölkə kimi ancaq və ancaq irəliyə gedəcəkdir”.***

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Rıfat Hisarcıklıoğlu: Naxçıvan Azərbaycan, Türkiyə və ümumilikdə, Türk dünyası üçün çox mühüm strateji əhəmiyyətə malik bir məkandır



*“Naxçıvan Azərbaycan, Türkiyə və ümumilikdə, Türk dünyası üçün çox mühüm strateji əhəmiyyətə malik bir məkandır. Muxtar respublikanın sürətli inkişafı, uğurlu yüksəlişi, gündən-günə gözəlləşməsi hər birimizi ürəkdən sevindirir, bizə qürur bəxş edir”.*

Bu fikirləri oktyabrın 24-də Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumunun iştirakçısı olmuş Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti jurnalistlərə açıqlamasında deyib.

Rıfat Hisarcıklıoğlu bu il Naxçıvan Muxtar Respublikasının muxtariyyətinin 90-cı ildönümünü çox böyük nailiyyətlərlə qeyd etdiyini bildirib. Vurğulayıb ki, ulu əcdadlarımız bu qədim diyarı düşməndən qorumaq üçün həmişə birlik nümayiş etdirib, çiyin-çiyinə Naxçıvanı qoruyublar. Bu gün Naxçıvan türk dünyasının alınmaz qalası kimi düşmənə gözdağıdır.

“Sevindirici haldır ki, bu gün Azərbaycan Respublikası hər sahədə sürətlə inkişaf edir və bu inkişaf həm də muxtar respublikanın timsalında özünü bariz şəkildə büruzə verir”, – deyən Rıfat Hisarcıklıoğlu əlavə edib ki, Azərbaycanın əbədi dostu, əvəzsiz strateji müttəfiqi Türkiyə də özünün yüksəliş dövrünü yaşayır.

**Rauf ƏLİYEV**

# Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasəti uğurla həyata keçirilir



***Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Gənclərin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır. Gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənc kadrların irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərdir.***

Bu gün muxtar respublikamızda gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli və vətənpərvər ruhda tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı bu məsələlərin həlli istiqamətində işlərin daha sistemli şəkildə həyata keçirilməsinə təkan vermişdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionumuzda gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Dövlət gənclər siyasətinin tərkib hissəsi kimi bu ilin aprel ayında isə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmiş, binada Gənclər Fondunun fəaliyyəti təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu muxtar respublikada gənclərin fəallığının artırılması sahəsində ardıcıl tədbirlər həyata keçirir. 2014-cü ilin ötən dövrü ərzində fond tərəfindən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş "Mən Naxçıvanı tanıyıram" bilik olimpiadası, "Nuh yurdu" intellektual oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi,"Naxçıvanı kəşf et" layihəsi reallaşdırılmışdır. Davamlı olaraq keçirilən bu cür layihələr muxtar respublikamızın tanıdılması və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə 15 may – Beynəlxalq Ailə Gününə həsr olunmuş "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda gənclər arasında yazı və rəsm müsabiqələri keçirilmişdir. Tələbə-gənclərin psixoloji sahələrdə maariflənməsi, onların karyera seçiminin və hazırlığının düzgün aparılması, gənclərin cəmiyyət üçün yararlı kadr kimi formalaşması yolunda şəbəkələşmə və sosial aktivliyin artırılması, sosial şəbəkələrdən düzgün və səmərəli istifadə edilməsi, gənclərin gələcək karyeralarında sağlam addım atmaları və fəallığının artırılması daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə 2014-cü ilin 9 ayı ərzində Gənclər Fondunun təşkilatçılığı ilə "Unipsixoloji forum" və "Gənclərin aktivliyinə dəstək" layihələri həyata keçirilmişdir.

Gənclərin asudə vaxtlarının səmərəli təşkili də dövlət gənclər siyasətinin mühüm tərkib hissəsidir. Fond tərəfindən ötən dövr ərzində Ağbulaq İstirahət Mərkəzində "Gənclərin yay düşərgəsi", Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı ilə birlikdə "Gənclərin yay universiteti"nin təşkil olunması bu istiqamətdə görülən işlərin tərkib hissəsidir. Hər iki layihədə ali təhsil müəssisələri tərəfindən müxtəlif mövzularda seminar-mühazirələrin keçirilməsi istirahət günlərinin səmərəliliyini daha da artırmışdır.

Milli Qurtuluş Günü ilə əlaqədar keçirilən gənc jurnalistlər arasında yaradıcılıq müsabiqəsi, orta ixtisas təhsili müəssisələri arasında bilik yarışı və gənclər arasında "Nuh yurdu" intellektual oyunu gənclərin Azərbaycanı qurtuluşa aparan tarixi məqamlar haqqında maariflənməsi baxımından əhəmiyyətli olmuşdur. Fondun keçirdiyi tədbirlərdə məktəb şagirdləri də unudulmamış, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birlikdə "Muxtariyyət ili" münasibətilə X-XI sinif şagirdləri arasında "Naxçıvan: doğma diyar" adlı inşa-yazı müsabiqəsi keçirilmiş, muxtar respublikanın tarixi, bugünkü inkişafı şagirdlərin düşüncəsi ilə təqdim edilmişdir.

Bu il iyul ayının 20-də fond tərəfindən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş "Muxtariyyətin intibahı: 1995-2014" yaradıcılıq müsabiqəsi elan edilmişdir. Müxtəlif istiqamətlər üzrə elan edilən yaradıcılıq müsabiqəsinin əsas məqsədi Naxçıvanın inkişaf dövrünə nəzər salmaq, muxtar respublika həyatının bugünkü mənzərəsini canlandırmaq və istedadlı gəncləri üzə çıxarmaqdan ibarətdir. Noyabrın 20-dək davam edəcək müsabiqəyə müxtəlif səpgili materialların qəbulu davam edir.

Hazırda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birgə hazırlanmış tədbirlər planı və əsasnaməyə uyğun olaraq, hər ay müntəzəm şəkildə "Hamımızın bir Vətəni var – bu, Azərbaycandır" silsiləsindən tam orta məktəblərin şagirdləri arasında "Xəmsə" intellektual oyununun televiziya variantı hazırlanır. Həmçinin 2014-cü ilin aprel ayından başlayaraq Gənclər Mərkəzində Gənclər Fondunun təşkilatçılığı ilə ingilis, rus və fransız dilləri üzrə hazırlıq kursları da təşkil olunur. Dövlət vəsaiti hesabına həyata keçirilən kurslara müxtəlif sahələr üzrə təhsil alan və ya işləyən gənclər cəlb olunur.Aprel ayından başlayaraq 6 aylıq nəzərdə tutulmuş kursların tədrisi davam etdirilmiş, sentyabr ayından başlayaraq xarici dil kursları üçün növbəti qeydiyyat başlamışdır. Hazırda ingilis, fransız və rus dilləri üzrə kurslarda 40 gənc iştirak edir.

Gənclər Mərkəzində gənclərin sərbəst şəkildə komandalar təşkil edərək intellektual oyunlar keçirməsi üçün də şərait yaradılmışdır. Sentyabr ayında iki layihənin həyata keçirilməsi üçün fonda müraciət olunmuşdur. Nəticə etibarilə, hazırda "I Zəka Oyunları Festivalı" və "Ekoloji mədəniyyət və ekoturizm" layihələrinin həyata keçirilməsi üçün hazırlıq işləri görülür. "I Zəka Oyunları Festivalı" muxtar respublikamızda bu qəbildən həyata keçirilən ilk layihə olmaqla yanaşı, gənclərdə komanda işinin təşkili və birgə fəaliyyətin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, 2014-cü ilin əvvəlindən keçirilən müxtəlif layihələrdə, yaradıcılıq müsabiqələrində və bilik yarışlarında muxtar respublika üzrə 2 mindən artıq gənc iştirak etmişdir. Bu da onu deməyə əsas verir ki, bu gün muxtar respublikamızda gənclərin intellektual inkişafına, onların asudə vaxtlarının səmərəli təşkilinə, gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsinə yönəldilmiş layihələr öz müsbət nəticələrini verir. Bütün bunlar isə muxtar respublikamızın gələcək inkişafı baxımından olduqca əhəmiyyətlidir. Gənclər Fondu bundan sonra da öz işini ali və orta ixtisas təhsili müəssisələri, tam orta məktəblər və aid dövlət orqanları ilə birgə quracaqdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu***

---

# Biliyə gedən yol əməli fəaliyyətdən keçir

Bu fikirdə böyük məna yükü var. Əməli fəaliyyətində təhsilin inkişafı naminə çalışan hər kəs bu sahədə yaradılan sağlam körpünün "mühəndisi" kimi tanınır. Naxçıvan Muxtar Respublikasının timsalında bu həqiqəti bütün dolğunluğu ilə görmək mümkündür. Təhsil elə bir sahədir ki, burada dövlətin qayğısı və əməli fəaliyyət ilə yanaşı, müəllim əməyi, müəllim biliyi, pedaqoji ustalığı da mühüm rol oynayır. Ulu diyarımızdakı təhsil ocaqları iki amilin vəhdətində ilbəil uğurlarının sayını artırmaqla təhsilin inkişafına öz töhfələrini verirlər. Bu yazımızda təhsil sahəsində yüksək uğurlar qazanan Culfa rayonunun təhsilindən bəhs etməyə çalışacağıq.

***Son 19 ildə Culfa rayonunda 24 məktəb binası tikilib və ya əsaslı təmir olunub***

Belə bir fikir var: "Planın bir illikdirsə, taxıl ək, on illikdirsə, ağac ək, yüz illikdirsə, məktəb tik". Bu gün muxtar respublikamızın gələcəyi təhsil üzərində qurulmuşdur. Muxtar respublikanın hər yerində olduğu kimi, Culfa rayonunda da məktəb tikintisi diqqət mərkəzində saxlanılır. Son illər rayonda 20 yeni məktəb binası, Şahmat Məktəbi, məktəbdənkənar müəssisələr üçün yeni binalar tikilib istifadəyə verilmiş, 4 məktəbin binasında isə əsaslı təmir işləri aparılmışdır. Hal-hazırda Bənəniyar kənd tam orta məktəbi üçün yeni bina inşa olunur, Şurud kənd tam orta məktəbi isə əsaslı şəkildə yenidən qurulur. Təhsil ocaqlarının maddi-texniki bazaları gücləndirilir, müasir informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. Təhsilin informasiyalaşdırılması sahəsində də əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Bu gün rayonun ümumtəhsil məktəblərində 352 ədəd kompüterdən istifadə olunur, 37 kompüter sinfi fəaliyyət göstərir. 26 məktəb internet şəbəkəsinə qoşulmuşdur. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün məktəblərə 67 ədəd elektron lövhə verilmişdir və tədris prosesində həmin lövhələrdən səmərəli istifadə diqqət mərkəzində saxlanılır.

***Məktəbin uğurları qəbul imtahanlarında qazanılan nəticələrlə ölçülür***

Culfa rayonunun pedaqoji kollektivləri təhsil işçiləri qarşısında qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmək üçün bütün imkanlardan səmərəli istifadə etməyə səy göstərirlər. Çəkilən zəhmət isə hədər getmir. 2013-2014-cü tədris ilində ali məktəblərə qəbul olmaq üçün ərizə vermiş 357 nəfərdən 189 nəfəri ali məktəblərə, IX sinif bazasından isə 26 nəfər orta ixtisas məktəblərinə, tam orta təhsil bazasından 39 nəfər kolleclərə qəbul olunmuşdur. Qeyd edək ki, ali məktəblərə qəbul olunan məzunlardan 21 nəfəri 500-600, 12 nəfəri 600-700 arasında bal toplamışlar. Bu sahədə Culfa şəhər 3 nömrəli, Saltaq, Şurud, Əbrəqunus, Kırna, Əlincə, Milax kənd tam orta məktəblərində ciddi irəliləyişlər müşahidə edilir. Şurud kənd tam orta məktəbində XI sinfi bitirən 5 şagirdin hamısı tələbə adına layiq görülmüşdür. Əlincə kənd tam orta məktəbində bu göstərici 88, Gülüstan kənd tam orta məktəbində 100, Milax kənd tam orta məktəbində isə 77 faiz təşkil etmişdir.

***Bu il rayonun 6 məzunu Azərbaycan Tibb Universitetinin tələbəsi olub***

Son illər Culfa rayonunda dəqiq elmlərə maraq getdikcə artır. Çünki yeni istifadəyə verilən təhsil ocaqlarında laboratoriyalardan, əyani vəsaitlərdən səmərəli istifadə olunur. Məhz bunun nəticəsidir ki, builki məzunlardan 6-sı Azərbaycan Tibb Universitetinin "müalicə işi" ixtisasına qəbul olunmuşdur. Bir nəfər isə Naxçıvan Dövlət Universitetinin "tibbi profilaktika" ixtisasının tələbəsidir. Bakı Dövlət Universitetinin "kompüter elmləri" ixtisasının iki nəfər tələbəsi də Culfa məktəblərinin məzunudur.

Onu da vurğulayaq ki, bu il muxtar respublikadan Prezident təqaüdünə layiq görülən iki nəfər gəncdən biri Culfa rayonunun Yaycı kənd 1 nömrəli tam orta məktəbinin məzunu Faiq Həşimli olmuşdur.

***Rayonda hərbi vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir***

Bu gün Culfa rayonunda, sözün əsl mənasında, vətənpərvər gənclik formalaşır. Hər il rayonda hərbi məktəblərə sənəd verən gənclərin sayı artmaqdadır. "Vətənin müdafiəsinə hazıram", "Şahin", "Sərhəd", "Cəsurlar" hərbi-idman və turizm oyunlarının keçirilməsi də məktəblilərin doğma torpağa məhəbbət ruhunda tərbiyə olunmasında, hərb sənətinə maraq və meyillərinin gücləndirilməsində mühüm rol oynayır. Culfa Rayon Təhsil Şöbəsi bu oyunların keçirilməsinə xüsusi diqqət yetirir. Məhz bunun nəticəsidir ki, Saltaq kənd tam orta məktəbinin "Cəsurlar" komandası muxtar respublika birinciliyində ikinci, Əbrəqunus kənd tam orta məktəbinin "Şahin" komandası dördüncü, Culfa şəhər 1 nömrəli tam orta məktəbin "Sərhəd" komandası ikinci yerlərə layiq görülmüşlər. Məktəblilərin fəal iştirak etdiyi bu yarışlar Azərbaycan gəncliyinin Vətənə daha möhkəm tellərlə bağlılığına, onların işğal olunmuş torpaqlarımızın xilası naminə vahid ideya mərkəzində birləşmələrinə öz müsbət təsirini göstərir. Onu da qeyd edək ki, bu il rayonun ümumtəhsil məktəblərinin 2 məzunu Sərhəd Qoşunları Akademiyasına, 5 məzunu Polis Akademiyasına, 40 şagirdi isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur.

Rayonda şagirdlərin fiziki hazırlığına da ciddi önəm verilir. Müasir standartlara uyğun şəkildə hazırlanan idman zalı və mini-futbol meydançalarında məktəblilər idmanın müxtəlif növləri ilə məşğul olurlar. Bu da bəhrəsiz qalmır, şagirdlər respublika əhəmiyyətli idman yarışlarında və olimpiadalarda fəal iştirak edərək yüksək nailiyyətlər qazanırlar. Bu ilin mart ayında keçirilən cüdo üzrə muxtar respublika birinciliyində Culfa Rayon Uşaq-Gənclər İdman Məktəbinin yetirmələri Elsevər Məmmədov 38, Ələkbər Cəfərov 50, Adəm Cəfərli 55 kiloqram çəki dərəcələrində yarışın birincisi olmuşlar.

***Ulu öndərin yoluna, dövlətimizə, müstəqilliyimizə sadiq gənclər yetişir***

Yuxarıda da qeyd etdiyimiz kimi, rayondakı təhsil müəssisələrində şagirdlərin ideya-siyasi tərbiyəsinə, müasir düşüncə tərzinin formalaşdırılmasına, onların milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə, vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Hər il əlamətdar günlərlə bağlı yaddaqalan tədbirlər keçirilir. Məqsəd isə ondan ibarətdir ki, şagirdlər intellektual səviyyədə biliklərə yiyələnməklə yanaşı, Heydər Əliyev ideyalarına, Heydər Əliyev yoluna, dövlətimizə, müstəqilliyimizə sadiq vətəndaşlar kimi yetişsinlər. Ümummilli liderimiz Heydər Əliyevlə bağlı keçirilən müsabiqələrdə məktəbin şagirdlərinin fəal iştirakını da xüsusi qeyd etməliyik. Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr edilmiş inşa yazı müsabiqəsinin respublika mərhələsində Culfa şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Nuray Nağıyeva fərqlənmişdir. Ulu öndərə həsr olunmuş şeir müsabiqəsində isə Culfa şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Şəbnəm Rəhimli muxtar respublika mərhələsində ikinci yerə layiq görülmüşdür. Bu il muxtar respublika ümumtəhsil məktəblərinin V-XI sinif şagirdləri arasında "Naxçıvan: doğma diyar" mövzusunda keçirilən inşa-yazı müsabiqəsində Dizə kənd tam orta məktəbinin şagirdi muxtar respublika mərhələsində üçüncü yerin sahibi olmuşdur.

***Gələcəyimizin sağlam bünövrəsinin qurulmasında müəllim əməyi mühüm rol oynayır***

Təhsilin keyfiyyəti, ilk növbədə, müəllimin elmi-nəzəri və metodik hazırlığından, onun təhsildə gedən müasir proseslərə qoşulmasından, zamanla ayaqlaşmaq üçün özünü təkmilləşdirməyə nə dərəcədə çalışmasından asılıdır. Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almalarında, milli ruhda tərbiyə olunmalarında xüsusi rol oynayırlar. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyularsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaqdır. Bu gün Culfa rayonunun müəllimləri üzərlərinə düşən şərəfli vəzifəni layiqincə yerinə yetirməyə çalışırlar. Rayonda təhsilin uğurlu inkişafına özünün gərgin əməyini sərf edən, pedaqoji səriştəsi, təcrübə və bacarığı ilə seçilən onlarla müəllimin adını qürurla çəkə bilərik. Onların əməyi dövlətimiz tərəfindən də yüksək qiymətləndirilir.

***Son söz yerinə...***

Görkəmli diplomat və ictimai-siyasi xadim Behbud ağa Şahtaxtinski yazırdı: *"Yüksək təhsilə, mədəniyyətə və elmi gücə malik olanlar həmişə qalib gəlirlər"*. Culfa rayonunun təhsil müəssisələrinin fəaliyyəti barədə kiçik qeydlərimizi qələmə alarkən bir anlığa muxtar respublikada bu strateji sahənin inkişafına göstərilən qayğını göz önünə gətirdim. Hamımız təsdiq edərik ki, belə qayğı paytaxt şəhərimizlə yanaşı, regionun ən ucqar dağ kəndlərini də əhatə edir. Qalır ki, bu qayğıdan yetərincə bəhrələnəsən. Yüksək uğurlara məhz onda nail olmaq mümkündür. Bunun bariz nümunəsi Culfa rayonudur.

**Sara ƏZİMOVA**

# Orda bir yurdum var...

## Zəngilansız 21 il

**Bu gün Azərbaycan Respublikasının dilbər guşələrindən biri olan Zəngilan rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından 21 il ötür. 1988-ci ildən 1993-cü il oktyabrın 29-dək nankor düşmənə baş əyməyən, yağı hücumlarına sinə gərən, yüzlərlə şəhid verən Zəngilan işğala məruz qalan ən sonuncu rayonumuz oldu. Zəngilan rayonu həm də Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşdiyi üçün mühüm strateji əhəmiyyətə malik idi. Bu yurd yerimizi işğal edən ermənilər qədim diyarla ana torpağımız arasında məsafəni daha da artırmış oldular. Yəni digər rayonlarla bərabər, Zəngilanın işğalı da Naxçıvan Muxtar Respublikasının blokadasının daha da, necə deyərlər, “möhkəmləndirilməsi” ilə bağlı məkrli siyasətin tərkib hissəsi idi.**



Erməni hiyləsinin baş tutmasında AXC-Müsavat iqtidarının yarıtmaz əməlləri və onlara məxsus pərakəndə silahlı dəstələrin xəyanətkar hərəkətləri böyük rol oynadı. Belə ki, təxribatlar nəticəsində ermənilər 1992-ci ilin dekabrında Zəngilan rayonunun əhatəsində olan əsas strateji məntəqələrimizi ələ keçirdilər. Kiçik qruplarla mübarizə aparan və rayonun könüllülərindən təşkil olunmuş özünümüdafiə dəstələri düşmənin ağır texnika və çoxsaylı canlı qüvvəsinə qarşı mərdliklə vuruşurdular. Lakin qüvvələr qeyri-bərabər idi. Ermənistan, demək olar ki, bütün hərbi gücünü bu rayonun işğalına sərf etmişdi. Hərbi təyyarələr belə, hücumda iştirak edir və rayonun mərkəzini bombalayırdılar. Ciddi müqavimətə baxmayaraq, vəziyyət daha da çətinləşirdi. Çünki düşmən döyüşə əlavə qüvvələr cəlb edir, təzyiqi artırırdı. Dörd gün ərzində, əsasən, Mehri, Qafan, Gorus ərazilərindən aramsız hücuma keçməklə qüvvələrimizi bu istiqamətə cəlb edən düşmən beşinci gün – oktyabrın 27-də səhər Cəbrayıl-Qubadlı istiqamətindən cəbhəni yardı.

Üç istiqamətdə hücuma keçən ermənilər rayonu mühasirəyə aldılar. Mehri istiqamətində hərəkət edən düşmən yüksəklikləri ələ keçirib Vejnəli və Ağbənd kəndlərini işğal etdi. Qafan istiqamətində hərəkət edən ermənilər Bürünlü, Şayıflı, Göyəli kəndlərini tutub rayon mərkəzinə gedən yola çıxdılar. Qubadlının işğal olunmuş ərazilərindən hərəkət edib Saldaş, Çərəli, Mollalı, Qiyaslı, Ulaşlı, Əbilcə, Qarakişi, Tinli, Xocahan, Ağbis kəndləri və Ağbis yüksəkliklərini ələ keçirdilər. Sığırt və Bartaz yüksəklikləri tutulduqdan sonra Zəngilan faktiki olaraq işğal edildi.

Həmin vaxt əhali tam mühasirədə qalmışdı. Şahidlərin dediklərindən də anlaşılır ki, burada təsvir edilməsi mümkün olmayan faciəvi bir vəziyyət yaranmışdı: üç tərəfdə qana susayan düşmən, qarşıda isə qanqan deyən Araz çayı. Əhalinin düşmənin qanlı caynaqlarından xilas olmağa ümidinin tükəndiyi bir vaxtda yenə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev fəryad edən insanların köməyinə çatdı. Ulu öndərin tapşırığına əsasən, Araz üzərində qurulmuş su bəndi bağlandı və beləliklə, çayın suyu azaldığına görə əhali maneəsiz bir şəkildə İran İslam Respublikasının ərazisinə keçə bildi. Həmin vaxt insanlara ümid verən yaşlıların sözləri də öz təsdiqini tapmış oldu. Onlar deyirmişlər: “Qorxmayın, Allah kərimdir, Heydər Əliyev heç vaxt öz xalqını darda qoymaz. Nəsə bir çıxış yolu tapacaq”. Həqiqətən də, belə oldu. Böyük xilaskar bu dəfə də xalqının köməyinə çatdı və 35 minə yaxın əhalini xilas etdi, dəhşətli bir soyqırımının qarşısını aldı.

Rayonun düşmən əlinə keçməsindən sonra Azərbaycanın işğal altında olan ərazisi 20 faizə çatdı. 1988-ci ildən başlayan və 1994-cü ilə qədər davam edən erməni təcavüzü və Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi nəticəsində minlərlə soydaşımız şəhid oldu, dövlətimizə milyardlarla manat ziyan vuruldu, regional infrastruktur tamamilə dağıdıldı. Milyondan artıq soydaşımız qaçqın və məcburi köçkünə çevrildi.

Zəngilanın işğalı nəticəsində, təqribi hesablamalara görə, ölkəmizə həmin dövrün rəqəmləri ilə 1 milyard 390 milyon ABŞ dolları məbləğindən çox ziyan dəydi. Həmçinin 10 mühüm tarixi abidə dağıdıldı. Onlar arasında Məmmədbəyli türbəsi (XIII əsr), Şərifan sərdabəsi (XII əsr), Hacallı dairəvi bürcü (XIV əsr), Yenikənd sərdabəsi (XIV əsr), Bartaz Qız qalası (XIII əsr) və digər əhəmiyyətli abidələr də var idi. Arxeoloji abidələrdən ən böyüyü isə “Şəhri Şərifan” adı ilə tanınan orta əsr şəhərinin xarabalıqlarıdır. İndi xarabalıqları xatırladan təkcə Şəhri Şərifan deyil, bütün Zəngilandır...

Zəngilan həm tarixiliyi, həm də coğrafi mövqeyi, torpağı, iqlimi ilə seçilir. Avropada birinci, dünyada ikinci olan Çinar meşəsi də məhz Zəngilanda idi. Bura qədəm qoyan geri qayıtmaq istəmirdi. İndi düşmən baltasına tab gətirə bilməyən həmin çinarları ermənilər doğrayaraq xarici ölkələrə satırlar. Rayon ərazisində 1974-cü ildə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğunun bərbad vəziyyətə salındığı barədə də məlumatlar var.

2270 metr hündürlüyündə Şükrətaz dağı, çiyin-çiyinə dayanan Əsgülüm, Susənin zirvələrinə qədər uzanıb gedən dağ silsilələri, meşələr, ormanlar qızmar yay günlərində insanların istirahət guşələri idi. Dağ ətəklərinin can dərmanı olan zoğalı, əzgili, qaragiləsi, böyürtkəni, narı, alçası, armudu, fındığı, cəvizi əvəzsiz sərvətimiz idi. Rayonda zəngin yeraltı sərvətlər – qızıl, qara mərmər yataqları, tabaşir çöküntüləri, əhəng xammalı, tikinti daşı və sair var.

Zəngilan rayon kimi 1930-cu ildə yaradılıb. Ərazisi 707 kvadratkilometr, əhalisi isə 35 mindən çox olub. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı – üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib. İşğal olunmazdan əvvəl Zəngilanda bir şəhər, bir qəsəbə və 83 kənd var idi.

Ötən əsrin 70-ci illərində ümummilli liderimizin səyi ilə Ağ oyuq hidrokompleksinin istifadəyə verilməsi Zəngilanın kənd təsərrüfatına yeni nəfəs gətirdi. Bu səbəbdən suvarılan əkin sahələri genişləndi, məhsuldarlıq dəfələrlə artdı. Yeni təsərrüfat sahəsi olan sitrusçuluq böyük gəlir gətirməyə başladı. Arıçılıq, balıqçılıq təsərrüfatı yaradıldı. Tütünçülük, heyvandarlıq, taxılçılıq yeni təməllər üzərində intensiv qaydada inkişaf etdirildi.

Bütün bunlar istehsal gücü 30 min tona çatan 2 şərab zavodunun, 1 milyon şərti banka istehsal edən konserv zavodunun, çörək zavodunun inşasına səbəb oldu. Rayonda 2 toxuculuq kombinatı fəaliyyətə başladı, 1 çınqıl, 2 asfalt zavodu, mərmər, əhəng sexləri yaradıldı.

Həmin dövrdə əhalinin gün-güzəranı xeyli yaxşılaşmışdı. Xüsusən sadə zəhmət adamları həyat, məişət şəraitini müasirləşdirir, yeni evlər, mülklər tikirdilər. Rayon əhalisinə 200 çarpayılıq xəstəxana və şəhər poliklinikası xidmət göstərirdi. Eləcə də iki 50 və iki 25 çarpayılıq kənd xəstəxanaları, 46 feldşer-mama məntəqəsi, 5 kənd ambulatoriyası, 125 çarpayılıq Mincivan Dəmiryol Xəstəxanası əhalinin xidmətində idi.

Rayonda 66 məktəb, 300 nəfər kontingenti olan texniki-peşə məktəbi, eləcə də qiyabi orta məktəb, 28 uşaq bağçası fəaliyyət göstərirdi. Rayonun geniş mədəniyyət müəssisələri şəbəkəsi var idi: 50 kitabxana, 9 mədəniyyət evi, 39 klub, 7 səyyar avtoklub, 21 kinoqurğu, 3 tarix-diyarşünaslıq muzeyi, 4 musiqi məktəbi və sair.

“Zəngilan” toponimini araşdırdıqda maraqlı məqamlar üzə çıxır. Belə ki, oğuz-türk boylarından biri olan və tarixdə böyük dövlətlər yaratmış zəngi tayfalarının Azərbaycanla bağlılığı heç kəsə sirr deyil. Adları əski mənbələrdə “sanqi” şəklində qeyd edilmiş zəngilər, əsasən, Qərbi Azərbaycanda – İrəvan mahalı ərazisində yaşayıblar. Zəngibasar bölgəsi, Zəngi çayı, Zəngilər kəndi də bu soyun adını yaşadan toponimlərdəndir. Haqqında bəhs etdiyimiz Zəngilan rayonunun adı da bu qədim oğuz boyunun adından götürülüb və “Zəngilan” şəklində müasir dövrümüzə gəlib çıxıb.

Qarabağ savaşında Zəngilan rayonundan 235 nəfər şəhid və itkin düşüb, 127 nəfər sağlamlığını itirib. Bunlar cismani itkilərdir. Mənəvi itkilər isə bundan az deyil. Yurd itkisinin doğurduğu məhrumiyyətlərdən, göynərtilərdən indiyədək yüzlərlə soydaşımız dünyasını dəyişib.

*Bu gün bütün Azərbaycan xalqı torpaqlarımızın geri qaytarılacağına tam əmindir və o günü səbirsizliklə gözləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, Azərbaycanda yaradılmış qüdrətli ordu bu inamı daha da artırır. Azərbaycanın dövlət başçısı dəfələrlə bəyan edib ki, biz heç vaxt indiki vəziyyətlə barışmayacağıq, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, öz ərazilərimizi işğalçılardan təmizləyəcəyik və orada yeni həyat yaradacağıq:* ***“O gün gələcək və biz hamımız – bütün Azərbaycan xalqı, hər bir vətəndaş öz zəhməti ilə o günü yaxınlaşdırır və yaxınlaşdırmalıdır”.***

**Rauf ƏLİYEV**

## Sağlamlıq imkanları məhdud şəxslərin və ahılların rəsm və əl işlərindən ibarət sərgi-müsabiqə

***Oktyabrın 27-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda sağlamlıq imkanları məhdud şəxslərin və ahılların rəsm və əl işlərindən ibarət sərgi-müsabiqə təşkil edilib. Sərgi-müsabiqə oktyabrın 31-dək davam edəcək.***



Sərgi-müsabiqədə 53 müəllifin 137 adda əl işi və 34 adda müxtəlif janrlarda çəkdiyi rəsmlər nümayiş etdirilir. Rəsm və əl işlərində rənglərin, bədii tikmələrin, metal üzərində döymələrin dili ilə tarixi-memarlıq abidələrimiz, muxtar respublikamızın füsunkar təbiəti öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov sərginin açılış mərasimində çıxış edərək qeyd edib ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin və ahılların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində davamlı tədbirlər həyata keçirilir. Hər il sağlamlıq imkanları məhdud şəxslərin və ahılların fərdi qabiliyyət və bacarıqlarını inkişaf etdirmək məqsədilə yaradıcılıq müsabiqələri, idman yarışları təşkil edilir. Bütün bu tədbirlərin həyata keçirilməsi istedadlı ahıl və sağlamlıq imkanları məhdud şəxslərə dövlətimizin göstərdiyi maddi və mənəvi dəstəyin ifadəsi olub, onların rifahının yüksəlməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış edərək qeyd edib ki, bu qəbildən olan tədbirlər istedadlı sağlamlıq imkanları məhdud şəxslərin və ahılların yaradıcılıq potensialının üzə çıxarmaqla onların qabiliyyət və bacarıqlarının, həmçinin estetik duyğularının formalaşmasına təkan verir, yaradıcılıqlarına inam hissi aşılayır.

Tədbirdə nümayiş etdirilən rəsm və əl işlərinin satışı da təşkil olunub. Bu da istedadlı sağlamlıq imkanları məhdud şəxslərin və ahılların maddi vəziyyətlərinin yaxşılaşmasına, onların yaradıcılıq əzminin daha da artmasına şərait yaradır.

Tədbir iştirakçıları göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Münsiflər heyəti tərəfindən qiymətləndirilən müsabiqənin qaliblərinə mükafat və diplomlar təqdim edilib. Sonra sərgiyə baxış olub.

Məlumat üçün qeyd edək ki, müsabiqədə xüsusi fərqlənən rəsm və əl işlərinin Bakı şəhərində keçiriləcək Əlillərin IX Ümumrespublika Sərgi-Müsabiqəsində nümayiş etdirilməsi nəzərdə tutulub. Xatırladaq ki, 2012-ci ildə Bakı şəhərində keçirilən Əlillərin VIII Ümumrespublika Sərgi-Müsabiqəsində muxtar respublikamızdan sağlamlıq imkanları məhdud 7 şəxsin 22 adda rəsm və 18 adda əl işləri nümayiş etdirilib və müsabiqənin qalibləri sırasında 3 həmyerlimiz olub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Bakı Dövlət Universitetinin Fiziki elektronika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, Əməkdar elm xadimi, “Şöhrət” ordenli, bir sıra beynəlxalq akademiyaların üzvü Şahlar Əsgərov ilə Naxçıvan Dövlət Universitetində görüş keçirilib.***

## “Kamilləşən düşüncə” kitabında təhsillə əlaqədar qaldırılan problemlər NDU-da müzakirə olunur

Qeyd edək ki, professorun hələ 40 il öncə əldə etdiyi nəticələrdən bu gün NASA və Amerika Aeronavika və Astronavika İnstitutu öz tədqiqatlarında, həmçinin kosmik tədqiqatlarda geniş istifadə edirlər. Bu isə onu göstərir ki, Şahlar müəllimin elmi işləri uzunömürlüdür. XX əsrdə raketlər kimyəvi yanacaqla işləyirdisə, XXI əsrdə onları ion mühərrikləri əvəz edəcək. Hal-hazırda kosmosa aparatların çıxarılmasında bu mühərriklərin rolu getdikcə artır. Bu mühərriklərin ömrünü uzatmaq üçün Ş.Əsgərovun elmi işləri müstəsna əhəmiyyət daşıyır. Bu elmi araşdırmaları ilə Şahlar Əsgərov dünya üzrə ən qabaqcıl alimlər sırasında layiqli yer tutub.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Azərbaycanın öncül ali təhsil ocaqlarından olan Naxçıvan Dövlət Universiteti milli kadr hazırlığı prosesinə sanballı töhfələr verməklə yanaşı, dəqiq elmlər sahəsində qazandığı nailiyyətlərlə də nüfuzunu qoruyur. Mövcud olduğu dövr ərzində yüz minlərlə insanın taleyində mühüm rol oynamış, ayrı-ayrı dövlət qurumları üçün layiqli mütəxəssislər hazırlamış universitetin digər sahələrdə olduğu kimi, fizika və riyaziyyat sahələrində də yetirmələri olmuşdur. Rektor professor Şahlar Əsgərovun “Kamilləşən düşüncə” kitabında təhsillə əlaqədar qaldırdığı problemləri müzakirə etmək üçün universitetdə görüşlər keçirəcəyini, mühazirələr söyləyəcəyini bildirib.

Professor Şahlar Əsgərov muxtar respublika haqqında, həmçinin tanış olduğu universitet kampusu ilə bağlı yüksək təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüb. Sonra professorun “Təhsil problemləri” mövzusunda mühazirəsi dinlənilib. Qeyd edək ki, professor Şahlar Əsgərov “Kamilləşən düşüncə” kitabında irəli sürdüyü “Dəyərlərin qiymətləndirilməsinin elmi əsası”, “Biliyin qiymətləndirilməsi”, “Düzgün qərarların qəbulu”, “İnsan potensialının inkişaf indeksi”, “Mənafelərin mübarizəsi” və digər mövzularda ali təhsil ocağında mühazirələr söyləyəcək.

**Mina QASIMOVA**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 911